# Auditin Keyfiyyətinə Nəzarət

Son illərdə aparılan keyfiyyətə nəzarət yoxlamaları göstərir ki, audit fayllarında aşkarlanan nöqsanların əksəriyyəti məhz keyfiyyətin idarə olunması ilə bağlıdır. Bu təqdimatda audit keyfiyyətinin nəzəri əsasları, praktik nöqsanlar və keyfiyyətli audit faylının necə qurulması barədə danışacayıq.

BKİS 1 | BAS 220 | BKİS 2



*Accredo Audit MMC-nin Direktor-auditoru Kərimov Şamxal Vəli oğlu*

Made with GAMMA

# Audit Keyfiyyəti: Üç Standartın Vahid Sistemi

Audit keyfiyyətindən danışarkən auditorların ağlına ilk növbədə BAS 220 gəlir. Halbuki audit keyfiyyəti yalnız bir standartın predmeti deyil — bu, **üç standartın birlikdə işlədiyi vahid sistemdir.**

### BKİS 1 — Firma Səviyyəsi

Audit təşkilatı səviyyəsində keyfiyyətin idarə edilməsini tənzimləyir. Standartın əsas məqsədi audit təşkilatında elə bir sistem yaratmaqdır ki, yerinə yetirilən audit tapşırıqları peşəkar standartlara və qanunvericiliyin tələblərinə uyğun şəkildə icra olunsun. Firmadan soruşur: **"Keyfiyyəti necə idarə edəcəksən?"**

### BAS 220 — Tapşırıq Səviyyəsi

Əgər BKİS 1 firma səviyyəsində keyfiyyət sistemini müəyyən edirsə, BAS 220 həmin sistemin konkret audit tapşırığında necə tətbiq olunmalı olduğunu müəyyən edir. Başqa sözlə, BKİS 1 təşkilatın keyfiyyət sistemini qurur, BAS 220 isə həmin sistemi konkret audit faylında həyata keçirir. Tapşırıq rəhbərindən soruşur: **"Bu auditdə keyfiyyəti necə təmin etdin?"**

### BKİS 2 — Müstəqil İcmal

Müəyyən audit tapşırıqları üzrə müstəqil keyfiyyət nəzərdən keçirmə mexanizmini müəyyən edir. Bu standart xüsusilə ictimai əhəmiyyətli müəssisələrin auditində və yüksək riskli tapşırıqlarda əlavə təhlükəsizlik mexanizmi rolunu oynayır. Soruşur: **"Əhəmiyyətli mühakimələr və veriləcək rəy müstəqil şəkildə qiymətləndirilibm"**

**Yaddaş açarı:** BAS 200 auditin "niyə"sini, BAS 210 "hansı şərtlərlə"sini, BAS 220 isə "hansı keyfiyyətlə" aparıldığını müəyyən edir.

Made with GAMMA

# Keyfiyyət Risk Əsaslıdır: BKİS 1-in Məntiqi

BKİS 1-in ən mühüm xüsusiyyətlərindən biri **risk əsaslı yanaşmanın** tətbiq edilməsidir. Əvvəlki yanaşmada əsas diqqət siyasətlərin və prosedurların mövcudluğuna yönəlirdisə, yeni yanaşma keyfiyyət risklərinin müəyyən edilməsinə və idarə edilməsinə əsaslanır. Firma əvvəlcə keyfiyyət məqsədlərini müəyyən edir, sonra həmin məqsədlərə nail olmağa mane ola biləcək riskləri qiymətləndirir və bu risklərə uyğun cavab tədbirləri hazırlayır.

Əslində bu məntiq auditorlara çox tanışdır — eyni yanaşmanı biz BAS 315-də də görürük. Audit zamanı maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini müəyyən etdiyimiz kimi, BKİS 1 çərçivəsində də audit təşkilatı keyfiyyət risklərini müəyyən etməlidir. Məsələn: təcrübəsiz heyətin auditə cəlb olunması, vaxt məhdudiyyətləri, qeyri-kafi metodoloji dəstək, müstəqillik riskləri, qeyri-kafi sənədləşmə kimi amillər keyfiyyət riskləri hesab edilə bilər.

### Keyfiyyət Məqsədi

Firma əvvəlcə keyfiyyət məqsədlərini müəyyən edir — audit tapşırıqlarının peşəkar standartlara və qanunvericiliyin tələblərinə uyğun icrası.

### Risk → Cavab Məntiqi

Həmin məqsədlərə nail olmağa mane ola biləcək risklər qiymətləndirilir və hər riskə uyğun konkret cavab tədbiri hazırlanır. Keyfiyyət riskini müəyyən etmək kifayət deyil — hər riskin konkret cavabı olmalıdır.

## Keyfiyyət Riskləri və Cavab Tədbirləri

| Keyfiyyət Riski | Mümkün Cavab Tədbiri |
|---|---|
| Təcrübəsiz komanda | Yuxarı səviyyəli (senior) icmal artırılır |
| Vaxt məhdudiyyəti | Əlavə resurs ayrılır |
| Kompleks vergi sahəsi | Məsləhətləşmə aparılır |
| Müstəqillik təhlükəsi | Qoruyucu tədbir və ya tapşırıqdan çəkilmə |
| Yüksək dələduzluq (fraud) riski | Daha dərin icmal və peşəkar skeptisizm |

Made with GAMMA

# Tapşırıq Səviyyəsi: BAS 220-nin Əsas Komponentləri

BAS 220-nin əsas ideyası ondan ibarətdir ki, auditin keyfiyyəti təsadüfən əldə olunmur. Keyfiyyət **planlaşdırılmalı, idarə olunmalı və sənədləşdirilməlidir.** Standart tapşırıq rəhbərinə auditin keyfiyyətinə görə ümumi məsuliyyət yükləyir.

⚠ **Vacib prinsip:** Tapşırıq rəhbəri işi komanda üzvləri arasında bölüşdürə bilər, lakin **keyfiyyətə görə ümumi məsuliyyəti bölüşdürə bilməz.** Bu məsuliyyət auditin sonuna qədər tapşırıq rəhbərinin üzərində qalır. Praktikada tez-tez eşidirik: "Bu sahəni böyük auditor yoxlamışdı" — lakin standartın məntiqinə görə bu izahlar tapşırıq rəhbərini məsuliyyətdən azad etmir.

BAS 220 audit keyfiyyətinin altı əsas komponentini müəyyən edir. Bu komponentlər bir-birindən ayrı fəaliyyət göstərən elementlər deyil — onlar birlikdə işləyən vahid sistem təşkil edir və audit risklərinin düzgün idarə olunmasına xidmət edir.

### Rəhbərlik və İdarəetmə

Tapşırıq rəhbərinin keyfiyyətə görə ümumi məsuliyyəti və komandada keyfiyyət mədəniyyətinin qorunması.

### Etik Tələblər və Müstəqillik

Müstəqillik və etik normaların audit boyu təmin edilməsi.

### Tapşırığın Qəbulu və Davamı

Müştərinin qəbulu, resurs qiymətləndirməsi və tapşırığın davam etdirilməsi qərarları.

### Resurslar

Komandanın səriştəliliyi, sayı və tapşırığın mürəkkəbliyinə uyğunluğu.

### Tapşırığın İcrası

İstiqamətləndirmə, nəzarət, icmal və mürəkkəb sahələrdə məsləhətləşmə.

### Monitorinq və Düzəliş

Aşkarlanan çatışmazlıqların kök-səbəb təhlili və düzəliş tədbirlərinin sənədləşdirilməsi.

**Keyfiyyətin idarə olunması prosesinin məntiqi:** Keyfiyyət məqsədi → Keyfiyyət riski → Cavab tədbiri → İcra və nəzarət → İcmal → Monitorinq → Nəticə. Bu sxem audit keyfiyyətinin mahiyyətini ən yaxşı şəkildə izah edir.

*Qeyd: BKİS 1 firma səviyyəsində bu siyahıya əlavə olaraq firmanın risk qiymətləndirmə prosesi və informasiya–kommunikasiya komponentlərini də daxil edərək səkkiz komponent müəyyən edir.*

Made with GAMMA

# Sonuncu Müdafiə Xətti: BKİS 2 və EQR

BKİS 2 bu sistemin sonuncu müdafiə xətti kimi çıxış edir. Bəzən auditorlar keyfiyyət icmalını əlavə audit proseduru kimi qəbul edirlər. Əslində isə BKİS 2-nin məqsədi auditi yenidən aparmaq deyil. Keyfiyyət nəzərdən keçirən şəxs audit komandasının yerinə prosedurlar icra etmir. Onun vəzifəsi **əhəmiyyətli mühakimələri, əhəmiyyətli risk sahələrini və veriləcək auditor rəyinin uyğunluğunu müstəqil və obyektiv şəkildə qiymətləndirməkdir.**

## EQR-in Diqqət Mərkəzində Olan Məsələlər

EQR (Engagement Quality Review – Tapşırığın keyfiyyətinə nəzarət) auditin yenidən aparılması deyil. Keyfiyyət icmalçısı audit prosedurlarını auditorun yerinə təkrar icra etmir. O, tapşırıq rəhbərinin əhəmiyyətli mühakimələrini və veriləcək rəyin uyğunluğunu obyektiv şəkildə qiymətləndirir.

- Əhəmiyyətli risklər
- Auditorun əsas mühakimələri
- Rəyin modifikasiyası ilə bağlı qərarlar
- Əsas audit məsələləri
- Müstəqillik məsələləri
- Auditor rəyinin formalaşdırılması

## EQR Nə Vaxt Məcburidir?

**1.** Müəssisə birjada qeydə alınıb və ya İƏQ-dir? → **Bəli:** EQR məcburidir.

**2.** Qanun və ya firma siyasəti EQR tələb edir? → **Bəli:** EQR aparılır.

**3.** Hər ikisi Xeyr → EQR məcburi deyil, firma daxili icmal kifayətdir.

⚠ Məcburi olduqda EQR auditor rəyi tarixindən **ƏVVƏL** tamamlanmalıdır; tamamlanmayıbsa, rəy verilə bilməz.

Made with GAMMA

# Keyfiyyətə Nəzarət Yoxlamalarında Ən Çox Rast Gəlinən Nöqsanlar (1–4)

Təcrübə göstərir ki, eyni nöqsanlar müxtəlif audit təşkilatlarında təkrar-təkrar rast gəlir. Bu nöqsanların böyük hissəsi texniki bilik çatışmazlığından deyil,**metodoloji yanaşmanın zəif qurulmasından** irəli gəlir.

### Nöqsan 1 — Risk Qiymətləndirilməsi Formal Xarakter Daşıyır (BAS 315)

Audit faylında risklər qeyd olunur, lakin həmin risklər konkret müəssisənin fəaliyyətindən irəli gəlmir. Məsələn, istehsal müəssisəsində də, tikinti şirkətində də, xidmət sektorunda da eyni risklər yazılır. Bəzən görünür ki, risklər əvvəlki auditdən və ya şablondan olduğu kimi köçürülüb. Risk qiymətləndirilməsi auditin təməlidir — əgər risk düzgün müəyyən edilməyibsə, sonrakı mərhələlər də problemli olacaq. Auditorlara sual: **"Bu risk məhz bu müəssisəyə niyə aiddir?"** Əgər bu sualın cavabı yoxdursa, risk qiymətləndirilməsi çox güman ki, formal xarakter daşıyır.

### Nöqsan 2 — Risklə Audit Prosedurları Arasında Əlaqə Qurulmur

Risk müəyyən edilir, lakin həmin riskə cavab verən audit proseduru görünmür. Məsələn, auditor gəlirlərin şişirdilməsi riskini müəyyən edir, lakin audit proqramında bu riskə cavab verən xüsusi prosedur yoxdur. Nəticədə risk sadəcə sənəd üzərində qalır. Risk qiymətləndirilməsinin məqsədi əlavə sənəd yaratmaq deyil — məqsəd audit prosedurlarını formalaşdırmaqdır. Audit faylında ən vacib zəncir:**Risk → Audit proseduru → Audit sübutu → Nəticə → Audit rəyi.** Bu zəncirin hər hansı hissəsi qırılırsa, audit keyfiyyəti zəifləyir.

### Nöqsan 3 — Sübut Var, Lakin Auditorun Nəticəsi Görünmür (BAS 500)

Bəzən audit faylında çoxlu sənəd olur: bank təsdiqləri, müqavilələr, hesablaşmalar. Lakin auditorun nəticəsi yoxdur. Auditor nəyi yoxlayıb? Nəyə görə həmin sübutu kifayət hesab edib? Hansı nəticəyə gəlib? Bunlar görünmür. Audit sübutunun məqsədi sadəcə sənədi fayla əlavə etmək deyil — əsas məsələ auditorun həmin sübut əsasında hansı nəticəyə gəldiyini sənədləşdirməsidir. Prosedurun aparılması kifayət deyil; auditorun həmin prosedur əsasında hansı nəticəyə gəldiyi də görünməlidir.

### Nöqsan 4 — Əhəmiyyətlilik Müəyyən Edilir, Lakin Audit Boyu İstifadə Olunmur (BAS 320)

Əhəmiyyətlilik (materiality) hesablanır, işçi sənəd hazırlanır, faizlər və məbləğ göstərilir. Lakin sonrakı mərhələlərdə əhəmiyyətlilikdən istifadə edilmir: bəzən seçmə həcmi əhəmiyyətliliklə əlaqələndirilmir, bəzən aşkar edilmiş təhriflər əhəmiyyətliliklə müqayisə edilmir, bəzən yekun qiymətləndirmədə əhəmiyyətlilik ümumiyyətlə nəzərə alınmır. Əhəmiyyətlilik auditin yalnız planlaşdırma mərhələsinə aid anlayış deyil — o, seçmə həcminin müəyyən edilməsində, aşkarlanmış təhriflərin qiymətləndirilməsində və yekun auditor rəyinin formalaşdırılmasında istifadə olunmalıdır.**Əhəmiyyətlilik audit boyu yaşayan göstəricidir.**

Made with GAMMA

# Keyfiyyətə Nəzarət Yoxlamalarında Ən Çox Rast Gəlinən Nöqsanlar (5–8)

### Nöqsan 5 — Peşəkar Skeptisizm Audit Faylında Görünmür (BAS 200)

Auditor peşəkar skeptisizm nümayiş etdirdiyini düşünə bilər, lakin audit faylına baxdıqda bunu görmək mümkün olmur. Məsələn, rəhbərlik izahat verir, auditor həmin izahatı qəbul edir — amma niyə qəbul edib? Alternativ ehtimalları nəzərdən keçiribmi? Əlavə sübut əldə edibmi? Bunlar görünmür. **Peşəkar skeptisizm auditorun beynində deyil, audit faylında görünməlidir.**

### Nöqsan 6 — Rəhbərliyin Bəyanat Məktubuna Həddindən Artıq Etibar (BAS 580)

Bəzən auditorlar rəhbərliyin təqdim etdiyi bəyanat məktubunu əsas sübut kimi qəbul edirlər. Halbuki bəyanat məktubu digər audit sübutlarını əvəz etmir — bu sənəd auditorun əldə etdiyi digər sübutları tamamlayır. Əgər auditor hər hansı mühüm məsələ üzrə yalnız rəhbərliyin bəyanatına istinad edirsə, bu, audit keyfiyyəti baxımından risk yaradır.

### Nöqsan 7 — Xarici Təsdiq Prosedurlarının Zəif Əsaslandırılması (BAS 505)

Bəzən debitor və kreditor borcları əhəmiyyətli məbləğ təşkil etsə də, xarici təsdiq prosedurları aparılmır və ya aparılmamasının səbəbi audit faylında əsaslandırılmır. Digər hallarda təsdiq məktubları göndərilir, cavablar alınır, lakin fərqlər təhlil edilmir və uyğunsuzluqlar araşdırılmır. Əsas məsələ təsdiqin mütləq alınması deyil, auditorun qərarını əsaslandırmasıdır: niyə təsdiq göndərilmədi, niyə alternativ prosedur seçildi və alternativ prosedur hansı nəticəni verdi?

### Nöqsan 8 — Auditor Rəyi ilə Audit Faylı Arasında Əlaqə Zəifdir (BAS 700)

Auditor rəyi audit prosesinin yekun nəticəsidir. Ona görə də rəy audit faylında sənədləşdirilmiş nəticələrin məntiqi davamı olmalıdır. Müəyyən hallarda rəyin audit faylında olan nəticələrlə tam uzlaşmadığı, əhəmiyyətli məsələlərin rəyə təsirinin ayrıca qiymətləndirilmədiyi və ya rəy mətninin standart formaya uyğun olmadığı müşahidə edilir. Keyfiyyət baxımından əsas tələb budur ki, verilmiş auditor rəyi audit faylındakı sübutlar və nəticələrlə dəstəklənsin.

**Ortaq cəhət:** Bütün bu nöqsanların ortaq cəhəti odur ki, auditorun gördüyü iş audit faylında — sənəddə — görünmür. Bu, BAS 230-un (audit sənədləşdirilməsi) əsas prinsipidir: **sənədləşdirilməyən iş, keyfiyyətə nəzarət baxımından, görülməmiş sayılır.**

Made with GAMMA

# Nümunə: ABCD MMC — İşçi Sənədi

Nöqsanların əksinə baxaq. Aşağıda ABCD MMC auditinin **"Tapşırıq keyfiyyətinin idarə edilməsi və icmal qeydi"** işçi sənədinin məzmunu verilir. Bu sənəd tapşırıq rəhbərinin keyfiyyətə görə ümumi məsuliyyətini bir səhifədə, izlənə bilən şəkildə sənədləşdirir.

| | |
|---|---|
| **WP Ref** | Tapşırıq keyfiyyətinin idarə edilməsi və icmal qeydi |
| **Müştəri** | ABCD MMC |
| **BAS əsası** | BAS 220 · BKİS 2 |
| **Hazırlayan / Nəzarət** | Kərimov Şamxal Vəli oğlu — 13.06.2026 |
| **Ümumi məsuliyyət (rəhbərlik)** | Tapşırıq rəhbəri Şamxal Kərimov auditin keyfiyyətinə görə ümumi məsuliyyət daşıyır və komandada peşəkar skeptisizm və keyfiyyət mədəniyyətinin qorunmasını təmin edir. |
| **Resurslar** | Tapşırığa beş nəfərlik səriştəli komanda və yetərli vaxt ayrılıb. Resursların qiymətləndirilməsi yalnız say baxımından deyil, həm də tapşırığın mürəkkəbliyinə uyğun səriştə baxımından aparılır. |
| **Tapşırığın icrası** | İstiqamətləndirmə, nəzarət və icmal komanda üzərində aparılır. Mürəkkəb sahələrdə məsləhətləşmə nəzərdə tutulub: uçot təxminləri (BAS 540 — faydalı ömür), dividendin vergi uyğunluğu (BAS 250) və əlaqəli tərəf (BAS 550). Komanda daxilində fikir ayrılığı qeydə alınmayıb. |
| **Keyfiyyət icmalının (EQR) təyini** | ABCD MMC birjada qeydə alınmayıb və İƏQ deyil. Tapşırığın risk profili, müəssisənin statusu və firma siyasəti nəzərə alınaraq müstəqil keyfiyyət icmalı (EQR) tələb olunmur; bunun əvəzinə firma daxili rəhbər icmalı aparılır. Bu icmal əsas mühakimələrə, əhəmiyyətli risklərə və rəy layihəsinə fokuslanır. |
| **Monitorinq və düzəliş** | Firmanın BKİS 1 üzrə monitorinq prosesindən bu tapşırığa aid həll olunmamış çatışmazlıq yoxdur. Çatışmazlıq aşkar edilərsə, kök -səbəb təhlili aparılır və düzəliş tədbirləri (remediation) sənədləşdirilir. |

**NƏTİCƏ :** Tapşırıq rəhbəri keyfiyyətin əldə olunduğuna əmindir: etik tələblər və müstəqillik ödənir, resurslar kifayətdir, icra və icmal aparılıb. Rəy tarixindən əvvəl bu nəticə yenidən təsdiqlənəcək. **Auditor rəyi verilə bilər.**

Made with GAMMA

# Audit Keyfiyyətinin Təmin Edilməsində Əsas Uğur Amilləri

BKİS 1, BKİS 2 və BAS 220 standartları göstərir ki, audit keyfiyyəti auditin sonunda yox, **audit başlamazdan əvvəl** formalaşmağa başlayır. Keyfiyyət yalnız düzgün auditor rəyinin verilməsi deyil; keyfiyyət audit prosesinin bütün mərhələlərində özünü göstərməlidir.

1. Keyfiyyət Mədəniyyəti

Standartlar dəfələrlə vurğulayır ki, keyfiyyət yalnız prosedurlar vasitəsilə təmin edilmir. Əgər audit təşkilatında keyfiyyət mədəniyyəti formalaşmayıbsa, ən yaxşı metodologiya belə formal xarakter daşımağa başlayır. Audit təşkilatının rəhbərliyi keyfiyyətin kommersiya maraqlarından üstün olduğunu nümayiş etdirməlidir. Komanda üzvləri başa düşməlidirlər ki, məqsəd sadəcə hesabatı vaxtında təqdim etmək deyil, keyfiyyətli audit həyata keçirməkdir.

2. Tapşırıq Rəhbərinin Aktiv İştirakı

BAS 220 tapşırıq rəhbərinə auditin keyfiyyətinə görə ümumi məsuliyyət verir. Bu məsuliyyət yalnız auditor rəyini imzalamaqdan ibarət deyil. Tapşırıq rəhbəri audit strategiyasının formalaşdırılmasında, risklərin qiymətləndirilməsində, əhəmiyyətli mühakimələrin nəzərdən keçirilməsində və yekun nəticələrin qiymətləndirilməsində fəal iştirak etməlidir. Keyfiyyətli audit faylında tapşırıq rəhbərinin iştirakı görünməlidir.

3. Resursların Düzgün Planlaşdırılması

Bəzən keyfiyyət problemləri metodoloji səhvlərdən deyil, qeyri-kafi resurslardan yaranır. Tapşırığın mürəkkəbliyi ilə komandanın təcrübəsi arasında uyğunluq olmalıdır. Komandaya kifayət qədər vaxt ayrılmalıdır. Mürəkkəb sahələr üzrə lazımi bilik və təcrübəyə malik şəxslər cəlb edilməlidir.

4. Monitorinq və Davamlı Təkmilləşdirmə

BKİS 1-in ən mühüm yeniliklərindən biri monitorinq və düzəldici tədbirlər sistemidir. Aşkarlanan çatışmazlıqlar yalnız qeydiyyata alınmamalıdır. Onların səbəbləri araşdırılmalı, kök-səbəb təhlili aparılmalı və gələcəkdə təkrarlanmaması üçün tədbirlər görülməlidir. Keyfiyyət idarəetmə sistemi statik deyil; o, davamlı inkişaf edən və təkmilləşən sistem olmalıdır.

5. Obyektiv və Müstəqil İcmal

Müəyyən hallarda audit keyfiyyətinin əlavə təminatı kimi keyfiyyət icmalı həyata keçirilir. BKİS 2-nin əsas məqsədi də məhz budur: əhəmiyyətli mühakimələrə və veriləcək auditor rəyinə əlavə, obyektiv və müstəqil baxış təmin etmək. Bu proses auditorun işini təkrar yerinə yetirmək deyil, audit keyfiyyətinin daha yüksək səviyyədə təmin edilməsinə xidmət edən əlavə qoruyucu mexanizmdir.

Made with GAMMA

# Müfəttiş Audit Faylını Necə Oxuyur? Praktik Tövsiyələr və Yekun Nəticələr

Müfəttiş audit faylını oxuyarkən ilk növbədə ayrı-ayrı sənədlərə deyil, auditin **ümumi məntiqinə** baxır. Faylı oxuyan şəxs aşağıdakı zənciri izləyə bilməlidir: **Risk → Audit cavabı → Audit sübutu → Auditorun nəticəsi → Auditor rəyi.** Əgər bu zəncir aydın görünürsə, audit faylı həm metodoloji, həm də keyfiyyət baxımından daha güclü hesab olunur. Əksinə, bu zəncirin hər hansı mərhələsində boşluq yaranarsa, audit keyfiyyətinə dair suallar meydana çıxa bilər.

## Praktik Tövsiyələr

→ **Auditə standartlarla deyil, risklə başlayın**

Audit proqramı hazırlamazdan əvvəl müəssisəni anlamağa çalışın. Müəssisə necə gəlir əldə edir? Əsas risklər hansılardır? Maliyyə hesabatlarında əhəmiyyətli təhrif harada yarana bilər? Yaxşı audit proqramı şablondan deyil, risk qiymətləndirilməsindən yaranır.

→ **Audit faylında auditorun düşüncəsi görünməlidir**

Toplanmış sənədlərin sayı keyfiyyət göstəricisi deyil. Əsas məsələ auditorun hansı nəticəyə necə gəldiyini göstərməkdir. Audit faylını oxuyan şəxs auditorun məntiqini izləyə bilməlidir. Peşəkar mühakimə və peşəkar skeptisizm yalnız auditorun beynində deyil, audit sənədlərində də görünməlidir.

→ **Tapşırıq rəhbərinin rolu formal olmamalıdır**

Tapşırıq rəhbəri yalnız auditor rəyini imzalayan şəxs deyil. O, audit strategiyasının formalaşdırılmasında, əhəmiyyətli risklərin qiymətləndirilməsində, mürəkkəb məsələlərin həllində və yekun nəticələrin formalaşdırılmasında fəal iştirak etməlidir. Keyfiyyətli audit faylında tapşırıq rəhbərinin iştirakı hiss olunmalıdır.

→ **Keyfiyyəti auditin sonunda yox, əvvəlində qurun**

Keyfiyyət yekun icmal mərhələsində yaranmır. Keyfiyyət müştərinin qəbulundan başlayır. Komandanın seçilməsi, vaxtın planlaşdırılması, resursların bölüşdürülməsi və risklərin qiymətləndirilməsi audit keyfiyyətinin əsasını təşkil edir. Auditin əvvəlində verilən düzgün qərarlar sonrakı mərhələlərdə bir çox problemlərin qarşısını alır.

→ **Keyfiyyətə nəzarətə inkişaf imkanı kimi baxın**

Keyfiyyətə nəzarətin məqsədi auditoru cəzalandırmaq və ya nöqsan axtarmaq deyil. Əsas məqsəd peşənin inkişafına, audit keyfiyyətinin yüksəldilməsinə və maliyyə hesabatlarına olan etimadın artırılmasına töhfə verməkdir. Hər bir yoxlama auditor üçün həm də öyrənmək və təkmilləşmək imkanıdır.

## Keyfiyyət Qərarları Rəyə Necə Təsir Edir?

| Vəziyyət | Nəticə |
|---|---|
| Müstəqillik təhlükəsi aradan qaldırıla bilmir | Tapşırıq qəbul/davam etdirilə bilməz; lazım gəldikdə tapşırıqdan çəkilmə |
| Resurslar və ya səriştə kifayət deyil | Tapşırıq qəbul/davam etdirilə bilməz |
| EQR məcburidir, lakin tamamlanmayıb | Auditor rəyi verilə (tarixlənə) bilməz |
| Tapşırıq rəhbəri keyfiyyətin əldə olunduğuna əmin deyil | Rəy verilməməli; əlavə iş və ya icmal aparılmalı |

**Yekun nəticə:** Yüksək keyfiyyətli audit yalnız auditor rəyinin düzgün verilməsi deyil, həmin rəyin arxasında dayanan peşəkar prosesin də yüksək keyfiyyətlə həyata keçirilməsidir. Audit keyfiyyəti düzgün risk qiymətləndirilməsi, kifayət qədər və uyğun audit sübutları, peşəkar mühakimə, peşəkar skeptisizm, effektiv rəhbərlik və nəzarət, güclü keyfiyyət mədəniyyəti üzərində qurulur.

Made with GAMMA